Qəlbin sıxılsa əgər...

AZƏRBAYCAN

Mən könlümü təzəcə eşqə düşənlər kimi
Pıçıldamaq istərəm – eşidilməsin səsim.
Sevgi etirafımı, bu vurulan qəlbimi
Elə açmaq istərəm bir kimsə eşitməsin.

Eşqimi ovuc-ovuc torpağına, daşına
Səpərəm, qız başına şabaş səpənlər kimi.
Səni öpmək istərəm – düz on səkkiz yaşına
Təzəcə qədəm qoyan qızı öpənlər kimi.

Uğrunda həyatımı qurban vermək istərəm,
Eşqin təntənəsiyçün can qurban edən kimi.
Səni bütün dünyaya mən göstərmək istərəm
Sevdiyim qız kimi yox – sevdiyim Vətən kimi.

1964

BƏNDƏM

Könlün intəhasız arzuları var,
Xəzan çağında da bir maya bəndəm.
Səmada ulduza, qövsi-qüzehə,
Yerdə lalələrdən bir paya bəndəm.

Ömür yollar keçən karvana bənzər,
Ona yük olmasın dövlət, simü-zər.
Ayı keşməkeşli ilə bərabər,
Günü əsr boyda bir aya bəndəm.

Getsəm də nə qədər kəndə, şəhərə,
Baxsam da cənnətə bənzər yerlərə –
Dənizlər deyəndə bəhri-Xəzərə,
Çaylarda Kür adlı bir çaya bəndəm.

Mənim doğma anam – Azərbaycanım,
Taleyim, vüqarım, eşqim, həyanım,
Yolunda ölümə hazırdır canım,
Ey Vətən, ey Vətən, bir haya bəndəm!

1965

DEDİLƏR KÜR QURUYUR

Dedilər quruyur mənim Kür çayım,
Yerimdə quruyub qaldım, a dostlar.
Axı, odur mənim baharım, yayım,
Onda tükənməyən nemətlərim var.

Bu möhnət ağrılı, bu həsrət yüklü
Ürəyim yanmazmı Kür quruyanda?
Deyin, gümüş tozlu, yaşıl hörüklü
O salxım söyüdlər neyləyər onda?

Neyləyər çöllərim, barlı bağlarım?
Yox, yox, bircə günüm Kürsüz olmasın!
Cadar-cadar olan bu dodaqlarım
Onun boz suyuna həsrət qalmasın.

Qurusa, ağlayıb göz yaşlarımı
Onun məcrasına axıdaram mən;
Yüz min il sonrakı yağışlarımı
Yağdırıb tökərəm ora indidən.

Bütün yer üzünə haray salaram,
Baxmaram dostumdur, ya düşmənimdir –
Çayından, gölündən borc su alaram...
Kür özgənin deyil, axı, mənimdir!

Günəşin özünü çəkib səmadan,
Ahımla əridib mən su eylərəm,
Onun yatağına tökərəm, inan!
Bunu bacarmasam, qardaş, ölərəm.

Kür – saysız zəmili, binəli, bağlı
Nəğməm, şeriyyətim, ürəyim, canım.
Kür – geniş süfrəli, əziz qonaqlı
Eşqim, səadətim – Azərbaycanım!

1964

VƏTƏN ƏTRİ

Hərdən mənə elə gəlir
Eldən uzaqdayam mən,
Bir tufanla harayasa
Atılmışam Vətəndən.

Nə xəritəm, nə kompasım...
Dolaşıram düzləri.
Kor olmuşam...
Heç nə görmür,
Heç nə seçmir gözlərim.

Sanıram ki, sərhədləri
İqlim-iqlim gəzirəm,
Nə usanıb yoruluram,
Nə gəzməkdən bezirəm.

Daşa, suya, torpaqlara
Sürtə-sürtə əlimi,
Axtarıram Vətənimi –
Azərbaycan elini.

Budur, çinar xışıltısı,
Budur, turac nəğməsi,
Yanağımı qarsılayır
Odlu Muğan nəfəsi.

Su içirəm – torpaq dadır, –
Ya Arazdır, ya da Kür,
Söykənirəm bir ağaca –
Bu deyəsən söyüddür.

Narınc, turunc ətri gəlir –
Bu, limonlu Talışdır,
Yellər əsir, dəli yellər –
Xəzri mənə tanışdır.

Dağ aşıram – ya Kəpəzdir
Ya Qoşqar, ya Savalan.
Kor olsam da tanıyıram:
Mənimkidir bu məkan!

Kor olsam da tanıyıram:
Azərbaycan özüdür!
Ana Vətən, səni tapan
Ürəyimin gözüdür!

1960

***

Yenə gəldim Qarabağa,
Dağı mənim, düzü mənim,
Sal daşlara naxış vuran
Kəkliklərin izi mənim.

Bu Əskəran qalasıdır,
Neçə dövrün balasıdır,
Neçə dövrə qalasıdır –
Sirri mənim, sözü mənim.

Qaya susur, qaş oxuyur,
Gah zil, gah yavaş oxuyur,
İnsan, torpaq, daş oxuyur
Ağlım çaşıb, düzü, mənim!

1963

NAXÇIVAN NƏĞMƏSİ

Bu gün Araz sahilinə gəlmişəm,
Mənim üçün "Arazbarı" çalın siz.
Bu yellərin sorağını indi də,
Qalaların naxışından alın siz.

Görürsənmi başı qarlı Şahbuzu,
Əriməyib quzeylərin sal buu.
Bol eləyin Badamlını, ağ duzu,
Süfrələri bir az geniş salın siz.

Ordubaddır bağlarının cənnəti,
Bu ad ilə bağlamışıq ülfəti,
Dadan zaman burda hər bir neməti
Alarsınız ləzzətini balın, siz.

Tamaşadan gözüm doymur, nədəndi?
Könlüm məgər ilqarından dönəndi?!
Dolaşanda Sədərəki, Vənəndi?!
Bağçalarda gəzin ayaqyalın siz.

Burda dastan kişilikdən, hünərdən,
Burda nəğmə qızıl donlu səhərdən.
Əgər bir gün ayrılsanız bu yerdən,
Qəlbinizlə Naxçıvanda qalın siz!

1973

SÖYÜD

Ay Muğanın gəlini,
Bitmisən şimalda da.
Belə yayma telini,
Birdən hava aldadar.

Yandırar şaxta səni,
Yaşıl çətrin gözəldi.
Gördüm uzaqda səni,
Duyğular dilə gəldi.

Yol salmısan bura sən
Bəlkə Kür qırağından?
Nolar, bir cüt verəsən
Zümrüdü yarpağından?

Astaca qopararam,
İncimәzsən qətiyyən.
Onları apararam
Günəşli cənuba mən.

O yerə ki, xəyalən
İsinərsən oduna,
Qışın şaxtasında sən
Gətirərsən yadına.

O yerə ki, sevənlər
Kölgəndə pünhan-pünhan
Sənə minbir ad verər:
Məcnun, salxım, ağlağan...

1974

***

Qara dəniz qapqara,
Qaradır adı kimi.
Zülmət çöküb sulara
Qarğa qanadı kimi.

Qara su səhrasında
Nəhəng gəmi sürünür.
Gəminin ziyasında
Qağayılar görünür.

Qağayılar ağappaq,
Uçurlar dəstə-dəstə.
Elə bil yüz-yüz varaq
Səpələnir su üstə.

Dalğalanır belinə
Qonduqca ağır-ağır,
Sanki qatran gölünə
Əlçim-əlçim qar yağır.

Bəziləri millənir
Sulara qayıq kimi,
Bəziləri yellənir
Havada yaylıq kimi.

Çörək atırıq hərdən,
Şığıyıb götürürlər.
Onlar bizi gecədən
Səhərə ötürürlər.

Qara dəniz, 1968

QƏLBİN SIXILSA ƏGƏR...

Düşsən uzaq elə sən,
Qəlbin sıxılsa əgər –
Yurdunu yad elə sən,
Kədərin keçib gedər.

Düşün ki, orda yenə
Yasəmən açıb çiçək,
Öpüb sahillərini
Kür axır əvvəlkitək.

Boz söyüd, ağcaqovaq
Yenə qol-budaqlıdır,
Düşün, yenə o torpaq
Bağçalıdır, bağlıdır.

Düşün ki, kənd qızları
Oxuyur, çalır yenə.
Durnaların qatarı
Göyə ucalır yenə.

Toyları, məclisləri
Duysan mən duyan kimi,
Ürəyinin kədəri
Dağılar duman kimi.

Xatirinə sal hər gün
Doğulduğun kəndi sən,
Qoynunda böyüdüyün
Yaşıl aynabəndi sən.

Ömrün qəmli anında
Düşün aşıq dostunu,
Toyxanalar qoynunda
Çox görmüsən sən onu.

O sazı, o söhbəti
Harda olsan unutma,
Könlünün məhəbbəti
Doğma yurdunu atma.

Nə şərab məclisləri,
Nə qızdakı incə səs,
Qəlbindəki kədəri
Əsla dağıda bilməz...

Düşsən uzaq elə sən,
Qəlbin sıxılsa əgər,
Yurdunu yad elə sən,
Kədərin keçib gedər.

1957

BAKI

Uzaq elli əziz dostum soruşdu:
– Sizin Bakı söylə, necə şəhərdir?
Dedim: – Qardaş, mənim doğma şəhərim
Yazılmamış, oxunmamış əsərdir.

Çiçək desən – könül açan çiçəyi,
Külək desən – cv uçuran küləyi,
Qasırğada ağ dalğalar ləçəyi,
Sakit gündə gözü mavi Xəzərdir.

Nəğməsidir zavodların fit səsi,
Suya düşüb buruqların kölgəsi.
Ətirlidir bağlarının meyvəsi,
Ağ şanısı elə bil ki, şəkərdir.

Dost görəndə tükənməyir hörməti,
Düşmən görsə, dərya olur nifrəti,
Bir qədər də dəlisovdur adəti,
Əziz dostum, Bakı belə şəhərdir.

1958

SƏNİN YERİN GÖRÜNÜR

Səməd Vurğuna

İllər üstə il gəlir;
sənsiz darıxır ürək
Qaranlıq bir otağa atılıb qalmış kimi.
Mən baxıram əksinə köksümü ötürərək,
İlahi bir lövhənin seyrinə dalmış kimi.

Qarşımda kitabların, dodağımda sözlərin...
Xəyalımda gülüşün, yerişin, baxışların...
Bəzən mən də keçirəm keçdiyin o düzləri,
Aşıram üzərindən o kəklikli daşların.

Fəqət ürək ovunmur şıltaq bir uşaq kimi,
Sənin yerin görünür dərədə də, dağda da.
Hər yanda görünürsən göy kimi, torpaq kimi,
Ancaq tapılmayırsan göydə də, torpaqda da!

Sənin yerin görünür çətin gündə, asanda,
Şanlı yürüşümüzdə, bu günün nəğməsində.
Sənin yerin görünür şerə qulaq asanda,
Qəribədir, arabir gəlir canlı səsin də!

Bütün təbiətinlə durursan göz önündə,
Birdən nəhəng salonlar qızıl nura bürünür.
Şairim, gizləməyir dostun da, düşmənin də,
Köks ötürüb söyləyir: "Onun yeri görünür!"

Çiçəkləri çırtlayan bizim Muğana bir bax,
Talada boynu bükük duran ceyrana bir bax,
Çəzə qələm götürüb şeir yazana bir bax,
Köks ötürüb söyləyir: "Onun yeri görünür!"

Dodağına eydirmə inək sağan ana da,
Göllərdə süzüb keçən o yaşılbaş sona da
Təzə nişanlılar da, toylar da, toyxana da
Köks ötürüb söyləyir: "Onun yeri görünür!"

Sənin yerin görünür,
sorağına çıxıram,
Evinin qabağında dayanıram bir anlıq:
Mən dolmuş gözlərimlə hey baxıram, baxıram,
Otağında sükut var, pəncərəndə qaranlıq.

Sən sevməzdin, şairim, sükunəti, zülməti,
Taleyin hökmünə bax, həyatın sirrinə bax!
Sənin iş otağında dünyanın şeriyyəti,
Yerin, göyün işığı qərar tutardı ancaq!

Ey yurdumun qoşması, gəraylısı, dastanı,
Sənsiz qəlbim sıxılır, kədərlərə bürünür.
Seyr etsəm də bu gün mən min sənətkar insanı
Sənin yerin görünür!
Sənin yerin görünür!

1957

***

Yollar eniş-yoxuşlu,
Ömür gödəkdir – dedim.
Dən düşdü saçlarıma,
Bu da gərəkdir – dedim.

Canım qurban olmə,
Çəmənimə, çölümə.
Elsiz-günsüz bir ömür
Başsız küləkdir – dedim.

Çox yanırsan, dedilər.
Odlanırsan, dedilər.
Vətən üçün alışan
Mən yox, ürəkdir, dedim!

1958

***

Gözümdə qalmayıb arzu da, kam da,
Həyat, yalnız sənə minnətdaram mən.
Uğurlu bir gündə, bir xoş məqamda
Məni bu torpağa oğul etmisən.

Məni yad yurda da ata bilərdin.
Övlad da edərdin başqa məkana.
Onda həsrətimdən yanıb ölərdim
Uzaqdan baxanda Azərbaycana.

Həyat, çox sağ ol ki, dillər içində
Mənə Azərbaycan dili vermisən.
Sərraftək seçmisən ellər içindən
Mənə bu torpağı, eli vermisən.

Göllərdən baxtıma Göygöl, Maralgöl,
Çaylardan payıma Araz, Kür düşüb.
Həyat, ürəyimi özün ara, gör –
Sənə buna görə təşəkkür düşür.

Nə qədər böyükmüş səndə səxavət,
Mənə bu torpaqda çörək vermisən.
Odlar ölkəsinin hüsnünə ziynət,
Mənə sevmək üçün ürək vermisən.

1977

TORPAĞIM

Hamıdan çox torpağıma inanıram,
İstəyirəm hər an onu seyrə çıxım.
Üzərində yeriyirəm, dayanıram,
Düşür zərif sinəsinə ağırlığım.

İnanıram, yenə möhkəm saxlayacaq,
Qoymayacaq məni o, dar ayağında.
Cavan ölsəm, bulaqlarda ağlayacaq,
Qoca ölsəm, dəfn edəcək qucağında.

Bir dən atsam, bu gün onun cadarına
Mənim üçün min-min sünbül yetirəcək.
Ehtiyacım olsa qışda baharına
Qar üstündə qızılgül də bitirəcək.

İnanıram, düşməninin qabağına
Özgəni yox, ilkin məni göndərəcək.
Yara dəysə bir ağacın budağına
Yalnız məni o, məlhəmə döndərəcək.

Lazım gəlsə çevriləcək yad qəbrinə
Mənim üçün gülzar olan hər qarışı.
Yer üzünə min il sonra gəlsəm, yenə
Kaş mən olam bu torpağın vətəndaşı!

1976

***

Desələr səfərə çıxmaq gərəkdir
Ən uzaq səfərə məni göndərin.
Min zülmət olsa da yarıb keçərəm,
İşıqlı səhərə məni göndərin.

Ürəyim yol çantam, yüküm arzular –
Gedərəm nə qədər canımda can var.
Desələr xəzana əsirdir bahar –
O yerə, o yerə məni göndərin!

Taledə rahatlıq axtarmıram mən,
Nə çıxar süst keçən durğun ömürdən?!
Desələr yolunu kəsəcək hərdən
Sıldırım, dağ, dərə – məni göndərin!

Açacaq sirrini talelər mənə,
Deyəcək tənələr, gileylər mənə.
Sevincim dəryadır – bəs eylər mənə,
Qüssəyə, kədərə məni göndərin!

Gümanım şərədir, bir də qələmə,
Bir də bu torpağa, doğma elimə.
Onların uğrunda bir gün ölümə –
Bax, o son səfərə məni göndərin!

1964

BİZİM EL

Ya qonaq, ya qərib, ya səyyah ol sən,
Harda könül açan mahnı eşitsən,
Dinləsən ürəkdən qopan bir hava,
Görsən qonaq sevən bir el, bir oba,
Görsən açıq ürək, mehriban sifət,
Görsən təmiz duyğu, təmiz məhəbbət, –
Deməli, əzizim, bizim eldəsən,
Şirvanda, Muğanda, ya da Mildəsən.
Ya Kürün, Arazın qırağındasan...
Bir söz – Azərbaycan torpağındasan.

1969

***

Yüz süfrədə müftə nemət dadsan da,
Yalnız əməyinə minnətdar ol sən.
Arxanda qayalı dağlar da dursa,
Dolu ürəyinə minnətdar ol sən.

Qalsan da illərlə sən ac-acına.
Haram çarə qılma ehtiyacına.
Üstü ağ çətirli qara sacına,
Unlu ələyinə minnətdar ol sən.

Tapın Allah kimi sən öz gücünə,
Biri yağda üzsə alma vecinə.
Ayranlı süfrənə, qoyun-keçinə,
Qızıl inəyinə minnətdar ol sən.

Hardasa bəslənir övlad rüşvətlə,
Geyinir, bəzənir arvad rüşvətlə.
Qoy keçsin onlarçün həyat rüşvətlə,
Halal çörəyinə minnətdar ol sən.

Öz bağında oxşa gülün çətrini,
Bil burda torpağın, suyun qədrini.
Burnuna çatdırsa Vətən ətrini,
Dəli küləyinə minnətdar ol sən.

1975

SÜFRƏ NƏĞMƏSİ

Ay eloğlu, biz toyuna gəlmişik,
Məclisimiz məclislərə calansın.
Oyatmaqçün bütün eli, obanı
Əvvəl başdan qara zurna çalınsın.

Göy ürgənin ipək kimi yalı var,
Onda gəlin aparmağın halı var.
Bəy evində neçə xalça-xalı var,
Deyin, onlar toyxanaya salınsın.

El bəzənsin yaşıllara, allara,
Xələt salın boyunlara, qollara,
Nur səpməkçün gəlin gələn yollara
Qoy məşəllər qoşa-qoşa qalansın.

Quzu kimi qoy mələsin balaban,
Məclis onsuz keçməz başdan, binadan.
Üfüqlərdə ağarınca qızıl dan
Aşıq qardaş ortalıqda dolansın.

Toy ağası, qonaqları başa çək,
Bıçaq kütdür, əti kəsməz, daşa çək.
Basdırmanı qanlı-qanlı şişə çək,
Qoy köz üstə cızıldasın, sulansın.

Cəngiylə bir gumbuldasın nağara,
Ara vercək qulaq asaq biz tara.
Kim xor baxsa bu adətə – mağara
Ömrü boyu duru suyu bulansın!

1956

DÜNYA OVCUMDADIR

Dünya ovcumdadır nəğmələriylə,
Dünya ovcumdadır qəm-kədəriylə,
Dünya ovcumdadır bütün varıyla,
Düzdə zəmisiylə, dağda qarıyla,
Mənim ovcumdadır bütün əsrlər,
Xalqlar, qəbilələr, ellər, nəsillər.
Sanki tarixləri yaşamışam mən,
Çiynimdə bu ərzi daşımışam mən.

Dünya ovcumdadır hər dəhşətiylə,
Atom bombasının fəlakətiylə,
Körpə gülüşüylə, şah qəzəbiylə,
Hər nəvazişiylə, hər əsəbiylə,
Dönük sevgisiylə, düz ilqarıyla,
Azadlıq, həqiqət arzularıyla...
Saysız qərinələr, əsrlərəm mən,
Şadlığam, sevincəm, qəm-kədərəm mən.

Dünya ovcumdadır al qanlarıyla,
Boyalı, boyasız insanlarıyla,
Günəşli, ulduzlu zəfərləriylə,
Dumanlı, tüstülü səhərləriylə.
Həyat nəğmələri dodağımdadır,
Buhenvald harayı qulağımdadır.
Mənim ovcumdadır Xirosima da,
Çiçəkli torpaq da, aylı səma da.

Dünyanın əbədi yaddaşı mənəm,
Dənizi, dərəsi, dağ-daşı mənəm.
Heç nə yayınmamış gözümdən, heç nə.
Azadlığa təşnə, bahara təşnə
Yüz ildir, min ildir yol gəlirəm mən,
Arzumun qoynunda dincəlirəm mən.
Durub nəfəsimi dərə bilmirəm,
Dünyanı heç kəsə verə bilmirəm.

Dünya ovcumdadır gələcəyilə,
Bütün nəsillərin güləcəyilə.
"Böyüksüz", "kiçiksiz" millətləriylə,
Dolu süfrəsiylə, nemətləriylə.
Qardaşlıq adlanan ilk baharıyla,
Beynəlmiləl ruhlu havalarıyla.
Qəlbimdə, qanımda bu böyük məna
Sabaha gedirəm, ovcumda dünya.

1974

YOLLARDA AXTAR MƏNİ

Məni yollarda axtar,
Eniş-yoxuş yollarda.
Döyəcləsin üzümə
Yağan yağış da, qar da.
Elə yolda axtar ki,
O, üfüqə dirənsin.
Elə yolda axtar ki,
O hər yandan görünsün.
O yollar uzun olsun
Ümid intizarıtək,
O yollar uzun olsun
İnsan arzularıtək.

Desələr ki, qaranlıq
Örtüb bütün aləmi,
Desələr bir yaranın
Çatışmayır məlhəmi,
Desələr bir körpənin
Gözləri yaşla doldu,
Desələr bir ananın
Qəlbi təlaşla doldu,
Desələr ki, hardasa

Yenə ağrı-acı var,
Bir nəfərin ömrünə
Elin ehtiyacı var, –
Bu yaralar sağalsın, –
Sən orda axtar məni.
El! – deyə oddan keçən
Yollarda axtar məni.

Bir gün mənim ağacım
Düşsə belə əlimdən,
Künco atılıb qalan
Daş ola bilmərəm mən.
Qoltuq cibə sığışan
Kiçik bir ktabımla,
Bir cahana sığmayan
Dərdimlə, əzabımla
Yenə yola çıxaram,
Daş-kəsəkli yollara.
Ya qərib durnaların
Düzüldüyü qatara,
Ya zirvələr fəth edən
Alpinist dəstəsinə,
Ya okeanlar keçən
Qəvvaslar cərgəsinə
Qoşularam, gedərəm –
Sularda axtar məni.
Qışla cidala girmiş
Baharda axtar məni.
Bir söz –
yollarda axtar,
Yollarda axtar məni!

1969

İLLƏR VƏ HEYKƏLLƏR

İllər,
min fəryadlı
min ahlı illər,
İllər heç baxmadı cüssəyə, yaşa.
O əsgər geyimli, silahlı illər
Hamını çevirdi heykəltəraşa.

Yanına salmadı kimsə əlini,
Dözdü sınağına şaxtanın, qarın.
Kimi daşa yondu öz heykəlini,
Kimi tırtılına polad tankların.

Kimi heykəlini Muğan düzündə
Ucaltdı zümrüdü zəmi içində.
Kimi Bibi-Yarda – qan hovuzunda,
Kimi də Volqanı üzüb keçəndə.

Kimi heykəlini neft mədənində
Yüksəltdi buruqtək, ucaltdı çəntək.
Kimi heykəlində – öz bədənində
Qanlı yara açdı...
Lalə açantək.

Stalinqradda, Leninqradda
Əritdi çoxları mərd heykəlini.
Kimi bir süngüylə, bir qranatla
Göstərdi düşmənə sərt heykəlini.

Kimi od içində,
Kimi arxada
Görünməz bir heykəl qoydu özünə.
Bu gün də Buhenvald düşəndə yada
Heykəllər görünür elin gözünə!

Silahmı, çəkicmi tutmuşdu əllər?
Əllər min ilhamlı, xəyalı keçdi.
Hekəl yaratmaqda illər,

o illər
Mikelancelonu, Cəlalı keçdi.

İllər,
min fəryadlı,
min ahlı illər,
İllər heç baxmadı cüssəyə, yaşa.
O əsgər geyimli silahlı illər,
Hamını çevirdi heykəltəraşa.

1975

QIRĞIZISTAN DƏFTƏRİ

1. MANAS DASTANI

Gəzdim qırğız ellərini doyunca,
Bir dolaydan yüz yol keçdim mən azı.
Dağa, düzə qədəmimi qoyunca
Hər qarışda gördüm canlı Manası*.

Dərə gördüm – adı Manas dərəsi,
Bulaq gördüm – adı Manas bulağı.
Palıd gördüm, yüz qulacdı hərəsi,
Başı göydə, adı Manas çomağı.

Qaya gördüm – düz ortadan yarılıb,
"Manas çapıb qılıncıyla" dedilər.
Qala gördüm kömür kimi qaralıb,
"O Manasdır yapıncıyla" dedilər.

Ay da onun köhləninin nalıdır,
Qövsi-qüzeh qılıncına rəngli qın.
Al günəş də Manasın tonqalıdır,
Özü çatıb, döyüşçülər qızınsın.

* Manas qırğız xalqının əfsanəvi qəhrəmanıdır.

Burda qıza ad qoyurlar Kanıkey –
Kanıkeydir Manasın da zövcəsi.
Oğlanlara Manas, Seytek, Semetey –
Adlara bax: özü, oğlu, nəvəsi.

Burda nə var ali, əziz, müqəddəs –
Qırğız qardaş Manas deyir adına.
Manas nə vaxt doğulub bəs, ölüb bəs? –
Yox, bu gəlmir bir kimsənin yadına.

Yarananda Qırğızıstan kəlməsi
O doğulub bir naməlum bətndən.
Qırğızların yurdu, yeri, ləhcəsi
Qurtarmaqçün hər bəladan, çətindən.

Nə qədər ki, Qırğızıstan sözü var,
Çaylarda su, süfrələrdə çörək var.
İssık-göl var, geniş Talas düzü var –
O xilaskar igid Manas, demək, var.

Gəzdim qırğız ellərini doyunca,
Bir dolaydan yüz yol keçdim mən azı.
Dağa, düzə qədəmimi qoyunca
Hər qarışda gördüm canlı Manası.

2. YAYDA QAR

Tyan-Şanda qara düşdük yay günü,
Kim inana, qara batdıq dizəcən!
Şaxta baba geydi bəyaz kürkünü
Biz saymamış əlliyəcən, yüzəcən.

Heç bilmədim bu yaydımı, qışdımı –
Talas yolu döndü bəyaz şəridə.
Göylər əzəl dövranında çaşdımı,
Sandım payız fəsli qalıb geridə?!

Yurtlar bəyaz göbələkdi elə bil,
Dərələrsə qımız dolu ağ dəniz.
Göylər yerə cuna çəkdi elə bil,
İtdi dolay, itdi cığır, itdi iz.

Otlayırdı dörd bir yanda sürülər,
Eləyirdik bu lövhəyə biz heyrət.
Yaldan yala adlayanda sürülər
Sanırdıq ki, yer cləyir hərəkət.

Sürü bəyaz, çöllər bəyaz, dağ bəyaz –
Hökmranlıq taxtındadır qar deyən.
Çobanlar da, köhlənlər də ağ, bəyaz –
Təbiətin bircə rəngi var deyən.

Bir az əvvəl "meh olaydı!" deyirdik,
Qova bilsin dolaydakı bürkünü.
İndi bizim nəyimiz var, geyirdik...
Tyan-Şanda qara düşdük yay günü.

3. ÇULPAN

Bəlkə şəfəqi çirib
Sənə qırğız qadını?
Gizləmə, de, kim verib
Sənə Çulpan adını?

Geydin baftalı donu,
Özün tikmisən onu.
Səyritdin dağ yalında
Dəli qırğız atını.

Köhlən qəfil dayandı,
Qəlbim alışdı, yandı.
Qımız verib söndürdün
Ürəyimin odunu.

Apardın yurta məni,
Dinlədin burda məni.
Sənin süfrəndə bildim
Beşbarmağın dadını.

Qırğızıstan zöhrəsi,
Üzün üfüq çöhrəsi.
Sənin əlindən aldım
Məhəbbət sovqatını.

Frunze, 1976

PEREDELKİNO

Köhnə dostum elektrik qatarı,
Söylə, belə tələsirsən haraya?
Bu təkərlər yüz yol məni aparıb
Oçakova, Solneçniyə, Naraya.

Moskvadan bəzən gecə çıxardıq,
Bir vaqona tələsərdik hərəmiz.
Pəncərədən işıqlara baxardıq,
Çox zaman da sıx olardı yerimiz.

Bəzən yuxu gözümüzü qapardı,
Peredelkin vağzalını keçərdik.
Görərdik ki, qatar bizi apardı,
Günlərimiz təkər üstə keçərdi.

Bəzən də biz qəsdən kələk qurardıq,
Bir qız mavi gözlə kəmənd atanda.
Özümüzü tez yuxuya vurardıq
Peredelkin vağzalına çatanda.

Bəzən qayda-qanunu da pozardıq,
Biz vaqonu qərq edərdik tüstüyə,
Şerimizi oğrun-oğrun yazardıq
Adi "Kazbek" qutusunun üstünə.

Vaqon həmin, qatar həmin, yol həmin,
Bircə gedən sərnişinlər başqadır.
Bəs o kimdir?
Odu qalxdı sinəmin.
Gözüm onu bir nəfərə oxşadır.

Rus qızları evlərdə də, bağda da
Çastuşkanı birağızdan deyərdi.
Heç bilmirəm qırx dərəcə şaxtada
Dondurmanı onlar necə yeyərdi!

Lap indi də dodağımda bal dadır,
Yaz çağının ağcaqayın şirəsi.
Göbələklər gözü yaman aldadır,
Bir rəngdədir, bir tamdadır hərəsi.

Sanardım ki, şamlar zümrüd gölündə,
Ağcaqayın bəyaz süddə çimibdir.
Bu uzanan sonsuz kartof çölündə
Dolaşalar bir qara xal kimiydi.

Köhnə dostum elektrik qatarı,
Səni gördüm dilə gəldi duyğular.
Peredelkin çeşməsinin axarı
Niyə belə sozalıbdır?
De, nə var?

Fadeyevin bağı susur kədərlə,
O gedəndən osinalar qocalıb.
Pasternakın dolaşdığı bu yerdə
İndi onun məzar daşı ucalıb.

Yadımdadır,
Tyorkinin atası*
Bir qış günü bura gəldi bizimlə.
O deyildi torpaq altda yatası,
İndi onu axtarıram gözümlə.

* A.Tvardovskiyə işarədir.

O Apollon övladları hanı bəs,
Ləpirləri xəzəl altda qalıbdır.
Eşidilir başqa nəfəs, başqa səs,
Başqaları bura ləpir salıbdır.

Budaqlarda təzə ilin yarpağı,
Ayaq altda köhnə ilin xəzəli.
Gözlərimi cavan qovaq budağı,
Xəyalımı xatirələr bəzəyir.

Köhnə dostum elektrik qatarı,
Şütüyürsən dərədə sən, düzdə sən.
Gəl, bir keçək xatirəli yolları,
Apar məni, apar hara istəsən.

1974

OKSANA

Mən səni gördüm bu gün gilənar bağlarında,
Həzin bir nəğmə vardı titrək dodaqlarında.
Bir qonağam elində, sənin torpaqlarında,
Nəğmənlə sular kimi ürəyimə axsana,
Oksana!

Nəğmədə yad edirsən bir qafqazlı cavanı,
Deyirsən mərd vuruşdu, axdı bu yerdə qanı.
Necə idi ünvanı, onun məzarı hanı?
Yerə dikmə gözünü, barı mənə baxsana,
Oksana!

Az da olsa o gəncə varmı mənim oxşarım?
Bax, bu qara gözlərim, bax, bu qara qaşlarım.
Atam da burda... Məni boğur bu göz yaşlarım,
Bir cavab gözləyirəm, susmağı buraxsana,
Oksana!

Oxuduğun nəğmənin kim qoşub bəstəsini?
Məni görən kimi sən niyə kəsdin səsini?
Bəlkə nəğməndə duydum atamın nəfəsini...
Sən bu qəmli romansı təzədən oxusana,
Oksana!

Kiyev, 1969

BİR OVUC GÜNƏŞ

İlk dəfə anamdan eşitdim bunu:
Bir ovuc günəşin nə olduğunu,
Naqafil bir səsdən, bir gurultudan
Bizi bürüyərdi qorxu, həyəcan.
Faşist təyyarəsi gəlir, sanardıq,
Torpaq qazmalarda daldalanardıq.
Elə ki, qaranlıq qazmaya girdi,
Anam söylənirdi, gileylənirdi:
"Bir ovuc günəş də qəhətdir bizə,
Qaranlıq yazılıb taleyimizə..."

O gündən, bir ovuc günəş sözünü,
Bir ovuc günəşin, nurun özünü
Gəzdirdim qəlbimdə öz qanım kimi,
Nəmli daxmaların dərmanı kimi.
Bildim o həyatdır, güldür, çiçəkdir.
Hamıya hər yerdə günəş gərəkdir.
Gərəkdir barmaqlıq arxasında da,
Lalələ düzlərin yaxasında da,
Ya bir ovuc olsun, ya da bir qətrə –
O, gərək nurunu salsın hər yerə.

Al günəş parlayır indi elimdə,
Bütöv bir günəş var mənim əlimdə,
Lakin gizləyərək öz həsrətini
Gözləyən xalqlar var, qəbilələr var.

Günəşsiz açılan neçə səhər var.
Günəşsiz günləri anıram bu gün,
Anamın sözləri keçir qəlbimdən.
Bir ovuc günəşi gətirmək üçün
Bir ömür piyada yol gedərəm mən.

1968

ONUN ŞƏKLİ

Çəkir onun şəklini
dünyanın rəssamları,
Çəkir onun şəklini
görməyən də, görən də.
Fırçanı bir parçanın
üstündə gəzdirəndə
Lenin ilk bahar kimi
coşdurur ilhamları.
Yunanlar çəkir onu
igid yunan gəncitək,
Zəngilər – qalındodaq,
rəngi qara zəncitək.
Ərəblər – bir nurani
müdrik ixtiyar kimi,
Hindlilər – hindli kimi,
Bolqarlar – bolqar kimi.
Lenini çəkən hər kəs
Düşünür:
Lenin onun
hər dərdindən halıdır.
Demək, o öz xalqının
oğlutək olmalıdır!
Sağ olsaydı Rafael,
Leonardo da Vinçi
Bir italyan oğluna
bənzədərdi İliçi.

Lenini ömrü boyu
bir yol da görməyənlər
Deyir: Lenin – azadlıq,
səadət,
Lenin səhər!
Rəssam qızılgüllərdən,
çiçəklərdən rəng alır,
Durur qövsi-qüzehtək
bu rənglərin yığını.
O, Lenini çəkəndə
bir an xəyala dalır,
Görür onun üzündə
Görür azadlığını...

1961

***

Qoca gördüm bu gün səhər
Bizim Şuşa yaylağında.
Gənclik nuru gözlərində,
Lalə rəngi yanağında.

Ağarsa da saçı qartək,
O gəzmirdi ixtiyartək.
Gözəl gördü bir maraltək,
Gülüş gəzdi dodağında.

Dedi: – Sorma yaşımı sən,
Doymaq olmur bir ömürdən.
Yüz il qoyun kəsmişəm mən
Bizim İsa bulağında.

Dedi: – Yaxşı səsim də var,
Bəmdə "Segah", zildə "Qatar"
Oxuyardım bir zamanlar
Xan qızının qabağında.

Dedi: – Turşsu, Cıdır düzü
Qoynuna çox alıb bizi.
Keçirmişik ömrümüzü
Ağ günlərin sorağında.

Baxdım ona xeyli zaman, –
Özü qoca, qəlbi cavan.
Qocalarmı, dedim, insan
Bu dağların qucağında?!

1956

***

Əl eləyir uzaqlar,
Görmədiyim torpaqlar.
Hər obadan, hər eldən
Ürək xatirə saxlar.
Təkərlər üstə keçən
Ömrümə yanmıram mən.

Daşlı-kəsəkli yollar,
Duman, çiskin, boran, qar...
Alsın məni yenidən
Gəmi, təyyarə, qatar.
Təkərlər üstə keçən
Ömrümə yanmıram mən.

Nəfəs dərmədən belə,
Adlayıb eldən-elə
Hər yerini, ey Vətən,
İstərəm gəzəm elə.
Təkərlər üstə keçən
Ömrümə yanmıram mən.

1963

***

Daha gözəl günlərə qovuşsun deyə insan
İstəsək, yağış nədir, od alarıq buluddan!
Günəşi əlimizlə çəkib göydən aşağı,
Yağışla yox, nurla biz suvararıq torpağı.
Göyün gurultusunu, suyun şırıltısını
Nəğmələrə salarıq, oxuyarıq ürəkdən.
Uzaq ulduzların da zəif parıltısını
İşığa, hərarətə çevirərək, ey Vətən!

***

Yolda açdım səhəri,
Üfüq üzümə güldü.
Qızıl donlu dan yeri
Gözlərimdə söküldü.

Ulduzlar tabaq-tabaq
Bir-bir batdı, əridi.
Sükutu pozan ancaq
Maşın təkərləridi.

Günəşin qızıl teli
Zülmətə sancılanda –
Zər qələm mürəkkəbə
Sandım batdı bir anda.

Dağlar gözüm önündə
Düzəldəndə qəddini,
Mən gördüm gecə ilə
Gündüzün sərhədini.

Yorulub çəkinmədən
Yol gedərdim beləcə
Ömrümü sona qədər –

Seyr etməkçin sizi mən,
Yolda qurtaran gecə,
Yolda açılan səhər!

1963

***

Hər keçəndə bu zümrüdü meşədən
İstəmirəm balta səsi eşidəm.
Təzə-təzə budaq atır pöhrələr,
Ovxalanmış o baltalar, dəhrələr
Bircə anda neçə ömrü söndürər,
Göy yarpağı boz xəzələ döndərər.
Açılmamış hələ yaxa düyməsi,
Bar verməmiş bir budağı, şaxəsi,
Bilinməmiş cırdı, cinsdi, ya nədi –
Balta zərif gövdələri göynədir.

Yox, yox, cavan ağaclara dəyməyin,
Doğramayın, sındırmayın, əyməyin!
Meşələrdə ağaclar var gövdəli,
İçi ovuq, başı isə göy dəlir.
Ayaq üstə quruyubdur haçandı,
Bir əl vursan böyrü üstə aşandı.
Xəstəliklər özəyinə yeriyib,
Kökü yerdə, başı göydə çürüyüb,
Düz bir ilin odunudur hər biri,
Biri örtər bir həyətlik çəpəri.
Gərəkdirsə kəsin, çapın, aparın,
İstəsəniz lap kökündən qoparın.
Fəqət cavan ağacları qırmayın,
Baltaları pöhrələrə vurmayın.

1974

***

Göy dənizdə söndü fanar,
Söndü yenə yanmaq üçün.
Suya endi qağayılar,
Qalxıb qanadlanmaq üçün;
İşıq söndü yanmaq üçün.

Sular oldu ləpə-ləpə,
Yatdı yenə qalxmaq üçün.
Dalğa gəldi təpə-təpə,
Qayaları yıxmaq üçün,
Yatdı yenə qalxmaq üçün.

Bir durğunluq arama sən
Təbiətin sükutunda.
Nələr, nələr yatır bilsən
Göyün sakit buludunda,
Təbiətin sükutunda!

Baxıb sakit görkəmimə
Demə eşqin odu söndü.
Yox, sən allah, elə demə,
Düşünürəm neçə gündü...
Demə eşqin odu söndü.

Düşünürəm sakit, səssiz
Yeni nəğmə qoşmaq üçün...
Odur, odur, qalxdı dəniz
Üfüqləri aşmaq üçün,
Üfüqləri aşmaq üçün.

1963

***

Atalar dönsəydi qanlı cəbhədən,
Dursaydı bizimlə çiyin-çiyinə
Saqqal ağartsaq da,
İnanıram mən,
Kişi deməzdilər bizlərə yenə.

Ana tabutunun qarşısında biz
Əgər durmasaydıq başıaşağı,
Saçı ağartsaq da,
Şəksix şübhəsiz,
Bizə deyərdilər ana uşağı.

Boy atıb oğlumuz, qızımız əgər
Bizi keçməsəydi qovaqlar kimi,
Yenə hamı bizə
"Körpədir" deyər,
bizə baxardılar uşaqlar kimi.

Əzəldən həyatın hökmü belədi,
Döysə də yollarda külək, qar bizi –
Görürsən,
Ad verib kişi elədi
Atalar, analar, övladlar bizi.

1972

Həyat

ÖMÜR

Bircə yol verilir ömür insana,
Tapılmış pul kimi baxma sən ona.
Ya çatdır kişitək bu ömrü sona,
Ya dalda yer ara, ayaqda yaşa!

Milyon insanların sən də birisən,
Nolar bir məqsədlə yansan, ərisən?!
Ya bir kölgə kimi süpür yeri sən,
Ya da al, dildə gəz, dodaqda yaşa!

Dalğalı dənizə bənzəyir həyat,
Köpürür bir saat, yatır bir saat.
Ya üz qəvvas kimi, dərində qol at,
Ya dayazda dolan, qıraqda yaşa!

Ömrünü bir cürə keçirir hərə,
Yüzü də yaşayır bəzi boş yerə.
Sən ya qartal kimi ucal göylərə,
Ya sürün ilantək, torpaqda yaşa!

Sən ömür adlanan bir yol üstəsən,
Bu yolda insana ağ gün istə sən.
Təkcə öz ömrünü xoşbəxt istəsən,
Bəşər övladından uzaqda yaşa!

1957

BALIQLAR

Doğrudan balıqların
Qəribə şakəri var:
Dünya alt-üst olsa da
Dinmir,
Susur balıqlar.
Tora düşəndə belə
Balıqlar yenə dinmir.
Bəlkə balıqlar əsla
Kədərlənmir, sevinmir?!
Biri bu qızılbalıq,
Danışsa, dinsə əgər
Qızıltək sözlər deyər.
Şahmayılar tavada
Qovrulanda cızhacız.
Baxır sükutla yalnız,
Gör necə susur sazan,
Gön qalın, gözlər iri;
Danışsa yağdıracaq
Qaba-qaba sözləri.
Sıf da susur, danışmır,
Üst-başı tikan-tikan.
Danışsa,
Tikanlı söz
Töküləcək ağzından.
Hərçənd ki, lüm-lüm udur
Balaca balıqları, –
Zorgödən naqqa belə
Danışsa, gəlsə dilə
Sözüylə, nitqi ilə
Kar edər qulaqları.
Danışmır çapaq, xəşəm,
Danışmır susur nərə.
Bu balıqlar görəsən
Danışmır nəyə görə?
Sel gəlir dalğalarla,